**“Poçt ödəniş xidmətləri haqqında” Sazişə qoşulmaq barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası “Poçt ödəniş xidmətləri haqqında” 2012-ci il oktyabrın 11-də Doha şəhərində imzalanmış Sazişə müvafiq bəyanatla (bəyanatın mətni əlavə olunur) qoşulsun.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 mart 2016-cı il
№169-VQ

**“Poçt ödəniş xidmətləri haqqında Saziş”ə dair**

**Azərbaycan Respublikasının Bəyanatı**

1. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində “Poçt ödəniş xidmətləri haqqında Saziş”in müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir. (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).*

2. Azərbaycan Respublikası bəyan edir ki, “Poçt ödəniş xidmətləri haqqında Saziş”in müddəalarından irəli gələn hüquq və öhdəliklər Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəkdir.

3. Azərbaycan Respublikası bu Bəyanatın 1-ci və 2-ci hissələrinin müddəalarını istənilən vaxt dəyişdirmək və ya ləğv etmək hüququnu özündə saxlayır və digər Tərəflər belə dəyişikliklər və ya ləğvetmə haqqında yazılı surətdə məlumatlandırılacaqlar.

---

* Bax: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, səh. 572.